# Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin böyük məharətlə davam etdirdiyi siyasi kursun hazırkı mürəkkəb dövrdə alternativi yoxdur

## *Səbail rayonunda “Heydər Əliyev - Azərbaycan: dünən, bu gün və sabah” mövzusunda “dəyirmi masa” keçirilib*

Səbail Rayon İcra Hakimiyyətində “Heydər Əliyev - Azərbaycan: dünən, bu gün və sabah” mövzusunda “dəyirmi masa” keçirilmişdir. RİH-nin Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı ilə birgə təşkil etdiyi tədbirdə rayon rəhbərliyi ilə yanaşı, müxtəlif dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, elm, təhsil, incəsənət və din xadimləri, ziyalıların, gənclərin, ağsaqqalların, veteranların və ictimaiyyətin, YAP Səbail rayon təşkilatının təmsilçiləri iştirak etmişlər.

“Dəyirmi masa”nı açıq elan edən Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qeyd etmişdir ki, Heydər Əliyev və Azərbaycan sözləri hər bir soydaşımız üçün eyni məna daşıyan sözlərdir. Təbiidir ki, bu gün birmənalı şəkildə demək olar ki, Heydər Əliyev olmasaydı müasir Azərbaycan dövlətini də görə bilməzdik. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi 30 ilin hər bir ili görülən işlər və əldə olunan nailiyyətlərə görə əhəmiyyətlidir.

Bəşər tarixində nadir insanlar olub ki, onların həyat və fəaliyyəti bütün millətin və xalqın, dövlətin taleyini həll edib. Onlardan biri də Heydər Əliyevdir. Azərbaycan tarixində çox sayda görkəmli dövlət xadimləri və şəxsiyyətlər vardır. Lakin yalnız Heydər Əliyev Azərbaycan xalqının, millətinin lideri kimi tarixə həkk olmuşdur.

Heydər Əliyevin Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri müstəqil dövlətimizin yaradılması və özünə layiqli siyasi varis olan cənab İlham Əliyevin yetişdirilməsi olmuşdur. Ulu öndərin ölməz ideyalarını, onun siyasi kursunu ləyaqətlə davam etdirən möhtərəm Prezident İlham Əliyev Azərbaycanda misli görünməmiş inkişaf və tərəqqi siyasətini həyata keçirən şəxsiyyət kimi artıq ölkə tarixinə “Qurucu” kimi düşüb. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin böyük məharətlə davam etdirdiyi siyasi xətt hazırkı çox mürəkkəb



dövrdə yeganə və alternativsiz siyasət olduğu üçün Azərbaycanın gələcək inkişaf və tərəqqisinə təminat verir.

Eldar Əzizov vurğulamışdır ki, məhz Prezident İlham Əliyevin yüksək intellekti sayəsində bu gün Azərbaycan sürətlə inkişaf edir və müstəqilliyini qoruyub saxlayıb. Hazırkı mürəkkəb dövrdə Azərbaycan kimi ölkənin müstəqilliyini qoruyub saxlamağı, onu inkişaf etdirməyi, dünyaya yeni iqtisadi-siyasi siyasət modeli kimi təqdim etməyi, balanslaşdırılmış siyasət yürütməyi yalnız xüsusi istedadı olan insanlar edə bilərlər və bu gün Azərbaycanda belə insan sözsüz ki, cənab İlham Əliyevdir. Bu kimi xüsusiyyətləri olan insanlar tarixdə dahi dövlət xadimi kimi xarakterizə edilir.

Tədbirdə YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, “Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Yusif Məmmədov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov və başqaları çıxış edərək ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin ayrı-ayrı sahələrinə, onun ölkəmizin müstəqilliyi, iqtisadi tərəqqisi və inkişafı istiqamətində gördüyü işlərə, Heydər Əliyevin əsasını qoyduğu və möhtərəm Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən siyasətin uğurlarına və gələcək perspektivlərinə həsr olunmuş geniş məruzələrlə çıxış etmişlər.

Tədbirdə səslənən çıxışların kitab şəklində buraxılması qərara alınmış və iştirakçılar adından bəyanat qəbul olunmuşdur. Bəyanatda qeyd olunur ki, ölkəmizin iqtisadi qüdrəti və beynəlxalq nüfuzu durmadan artır, xalqımızın güzəranı yaxşılaşır. Hazırda ölkəmizdə əldə olunan uğur və nailiyyətlərin əsaslarını ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə özünün dərin zəkası, mətin iradəsi, uzaqgörənliyi, vətənpərvərliyi, gərgin əməyi ilə yaratmışdır. Azərbaycan xalqının yetişdirdiyi ən nəhəng sima, idarəçilik sahəsində zəngin təcrübəli dövlət xadimi kimi Heydər Əliyev bütün həyatını ölkəmizin inkişafına həsr etmişdir.

Bu gün ulu öndərin ölməz ideyalarını onun siyasi kursunun layiqli davamçısı, həyatını xalqımızın hərtərəfli tərəqqisinə həsr edən möhtərəm Prezident İlham Əliyev uğurla davam etdirir. Ulu öndərin ideya və əməllərini yaşadan, dünyada yeni lider kimi tanınan Azərbaycan rəhbəri dövlətçilik maraqlarımızın qorunmasında, əhalinin rifahının yaxşılaşdırılmasında qəti və prinsipial mövqe nümayiş etdirir.

Ardıcıl olaraq həyata keçirilən tarazlaşdırılmış xarici siyasət nəticəsində ölkəmizin regionda və beynəlxalq aləmdə nüfuzunun və təsirinin artması məhz möhtərəm Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. Bildiririk ki, bugünkü müzakirə və qənaətlərin məntiqi davamı kimi xalqımızın ön sıralarında gedərək bu siyasətin Azərbaycana yeni uğurlar qazandırması naminə sevimli Prezident İlham Əliyevin ətrafında daha sıx birləşəcək, həmişə, hər işdə ona dəstək olacağıq.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

Azərbaycan. - 2015.- 24 dekabr.- S.8.